# Şəhidlərimizi əbədiləşdirən misralar

**Abidələr təkcə daşdan-dəmirdən, qranitdən və s. olmur. Yazılan kitabların özü də bir abidədir.**

Yadigar xanım Təvəkgülün ardıcıl olaraq yazdığı "Qisas əməliyyatı", "İlğım" və " Qayıtmayan durnalar" kitabları da həmin abidələrdən biridir.

Müəllifin başdan-başa, əvvəldən - axıra ürək yanğısı ilə yazdığı bu kitablar Vətən müharibəsinə və bu müharibədə mərdlik və qəhrəmanlıq göstərərək quduz düşmən üzərində qələbə çalmış Ali Baş Komandanımızın, rəşadətli ordumuzun, əsgər və zabitlərimizin, vətən naminə canlarını qurban vermiş şəhidlərimizin, sağlamlıqlarını itirmiş qazilərimizin misilsiz hünər və rəşadətinə həsr olunub.

Kitablarda diqqəti cəlb edən bir də odur ki, müəllif öz hiss və duyğularının təsiri ilə qələmə aldığı mövzu ilə təkcə qaynayıb-qarışmır, onun incəliklərinə, dərinliklərinə məharətlə baş vurur və oxucularını da istər-istəməz o məkana çəkib aparır.

Vətən hünər meydanı, cəsarət meydanıdır - deyən müəllif düşmən üzərindəki tarixi qələbəmizi böyük Turan arzusu və Turanın varlığı ilə əlaqələndirir və şanlı zəfər müjdəsindən iftixarla söhbət açır. Elə bu məqamda xain və məkrli düşmənə üz tutaraq nifrətlə deyir: Səni bəd və xain əməllərinin, törətdiyin vəhşiliklərin qəzəbindən kim qurtaracaq? Sən unutma ki, əcəlindən kam alıb qurda dönən əsgərlərimizin, şəhid övladlarının yasına, necə deyərlər, toy quran mərd ata-anaların, daim haqq-ədalətə söykənən, vətən bayrağına sarılan oğulları olan qüdrətli bir ölkəyə, igid bir xalqa sənin gücün çatmaz. Necə ki, çatmadı da. Bunun üçün sənin nə gücün, nə haqqın, nə ləyaqətin, nə də qüdrətin var...

Qisas əməliyyatında xüsusi fədakarlıq göstərmiş Nəzər Əzizov və onun kimi şəhidlərimizin timsalında müəllif Vətən sevgisinin müqəddəsliyindən, Vətən yolunda şəhid olmağın xoşbəxtliyindən söz açır. Vətən sevgisini və məğrurluğunu ata-anasından öyrənən Nəzər çətinliklərə məharətlə sinə gərir, ən ağır döyüşlərdə ölümün gözünə dik baxaraq şəhid olur.

Ağacəlil atanın, Cəmafət ananın şəhid oğulları barədə ürək sözləri təkcə kədər deyil, həm də məğrurluq və qürur ifadəsi kimi diqqəti cəlb edir:

*İçindən qırılıb parçalanmışdı,*
*İndi kimi vardı əldən tutası?*
*O, dünən Nəzərin atası idi,*
*Bu gündən olmuşdu şəhid atası.*

Ananın gəldiyi qənaət isə bu misralarda əks olunub:

***Sözüm də tükənib "balam" deməkdən,***
***Yastığı, döşəyi Vətən daşıdır.***
***Yorğanı qar olub sinəsi üstə***
***Bəlkə sənin qoynun bizdən yaxşıdır.***




Vətənə şəhid verən ata-ana üçün "bu dərd dərdlərin gözəlidir" deyən müəllif ürəkləri, qəlbləri ovudan bu təsəlli ilə vətənpərvərliyin, yenilməzliyin nə qədər böyük və uca olduğunu, eləcə də ürəklərində kədər və fəxarət hissini birlikdə daşıyan ata-ananın vətən yolunda hər şeydən keçməyə hazır olduqlarını faktların dili ilə oxucuya çatdırır.

***Zirvədə şığıyan bir qartal idi,***
***Bir gecə dərəyə endi, Nəzərim.***
***Düşmənlə qisasdan gözü doymadı,***
***Əsl Koroğluya döndü Nəzərim.***

deyən müəllif Nəzərin yadigarları olan azyaşlı körpə uşaqların dilindən cəbhələrdə döyüşən ataya çatdırır ki, ata, sən bizim kimi uşaqlar sevinc içərisində yaşasınlar deyə, əsirlikdə qalan həmyaşıdlarımız xilas olsunlar deyə vuruşursan. Buna görə biz səninlə fəxr edirik! Vətən, Bayraq və ana istəklərini bir rəmz kimi özündə birləşdirən "Bir igid ömrü" poemasında müəllif general Polad Həşimovun, sıravi döyüşçü Nəzər Əzizovun və digər igidlərimizin nümunəsində qisasın qiyamətə qalmadığından, vətən oğullarının hərbi xidmətə və döyüşlərə ürəklə can atmalarından, general Polad Həşimovun bir sərkərdə kimi igidliyindən, qayğı və mehribanlığından, əsgər və zabitlərimizin ona olan hörmət və ehtiramından bəhs olunur.

***İgid əsgərlərin gəzir dilində,***
***Hamıya diqqəti, mehribanlığı.***

***Yadigar Təvəkgül***




***Ordumuzun zəfər salnaməsində***
***Tarixə çevrilib qəhrəmanlığı.***

Kitadakı şeirlərdə Ali Baş Komandanımızın dəmir yumruğu böyük qürur və fəxarət hissi ilə vəsf olunur:

***Torpağında illər boyu at oynadan düşməni***
***Vurub dəmir yumruğuyla məhv etdi Baş komandan.***

Əsgər və zabitlərimizin, xüsusi təyinatlıların hünərini təcəssüm etdirən ayrı-ayrı döyüş epizodları poetik dillə əks olunub. Döyüşlərdə iştirak edən igidlərimizin adları sadalanır. Şeirləri oxuduqca özünü səngərlərdə, döyüşlərin içərisində, döyüşən əsgər və zabitlərimizin arasında hiss edirsən.

Vətənə layiqli övladlar bəxş etməklə mərdanə bir ömür yaşayan ata-anaların əzəməti, oğullara ata-ana tövsiyələrinin gərəkliyi, bu qarşılıqlı istəyin uğurlu nəticələri şeirlərdə fəxrlə tərənnüm olunur.

Müəllifin "Sabahın xeyir" şeirindəki "sabah"ın öz fəlsəfəsi olmaqla rəmzi məna daşıyır.

Dünənin gələcəyi olan sabah ? yəni olmazın əzab-əziyyətlərdən, ölüm-itimlərdən sonra, düşmən işğalı ilə bağlı, məcburi qaçqınlıqdan, köçkünlükdən sonra işıqlı, azad və firavan sabaha qovuşmaq necə də şərəflidir. Müəllif "Sabahın xeyir" deməklə qələbədən sonra nurlu sabaha yetişmiş xalqımıza gözaydınlığı verir, bu günümüzələ bağlı olan möhtəşəm sabahımızı salamlayır. Qələbə sevincini bir daha dilə gətirir:

***Yenə oğulların verdi əl-ələ,***
***Düşmənin dizini çökdürdü yerə.***
***Qələbə sorağın düşübdü dilə,***
***Gözün aydın olsun, Vətən, ay Vətən!***

Həmvətənlərimiz, soydaşlarımız vaxtilə düşmən təcavüzü nəticəsində onların əlindən alınmış torpaqlarına qovuşmalı, öz doğma yurd-yuvalarına, el-obalarına qayıtmalıdırlar. Bu arzu və istək müəllifin "Göyçəyə" şeirində də öz əksini tapıb:

***Dərd olsa da necə ağır,***
***Ay Yadigar, eli çağır.***
***Salağın biz yeni cığır***
***İzi Göyçəyə, Göyçəyə.***

"İlğım" kitabında müəllif hərbi təyyarəçi, göylər şahini Şaban Yunusovun və onun döyüş yoldaşlarının hünərindən söz açır.

Təyyarəçi oğlu ilə fəxr edən, uzun müddət üzünü görə bilmədiyi övladının nə vaxtsa qayıdacağı ümidi ilə gözlərini göylərə dikən ananın ürək çırpıntıları bir-birindən maraqlı misralarda əks olunub.

Atasını vaxtsız itirmiş Şabanın hələ kiçik yaşlarından üzləşdiyi çətinliklərdən söhbət açan müəllif "Tükəzban ananın güman yeri, ümid çırağı idi Şaban" deyərək, onun yaşadığı hiss və duyğuları təsirli ifadələrlə əks etdirib.

Müəllif hərbi təyyarəçi Şabanı "göylər qartalı" adlandıraraq yazır:

***Vətənin ən ağır, çətin günündə***
***Bir yerdə dayanıb qərar tutmadın.***
***Gah oldun təlimdə, gah da döyüşdə,***
***Evdə dincəlmədin, evdə yatmadın.***

Müəllifin "Qayıtmayan durnalar" kitabı Vətən müharibəsində qalib gəlmiş Azərbaycanın mərd oğullarına, o cümlədən Kürdəmir rayonundakı şəhid Tahir İslamov adına Dəyirmanlı kənd tam orta məktəbin şəhid məzunlarına, qazi və müharibə veteranlarına həsr olunub. Adlarını tarixə yazmış şəhidlərimizdən Tahir İslamov, Şaban Yunusov, Mübariz Osmanov, Əsgər Yəhyayev, Teymur İsgəndərli, Qurban Rəhimov, Nəzər Əzizov vaxtilə həmin orta məktəbdə oxuyublar. Adları çəkilən şəhidlərin bir vaxt məzun olduqları məktəbin müəllim və şagirdləri onların xatirəsini daim əziz saxlayır.

Şəhidlərə göstərilən bu daimi hörmət və ehtiram Yadigar xanım Təvəkgülün kitablarında öz geniş əksini tapmışdır.


**Tofiq Abdullayev,**
**Yazıçı-publisist**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü**